# Bərpa işlərinin yaratdığı reallıqlar nikbinlik doğurur

***Əsrin əvvəllərindən Azərbaycana rəhbərlik edən cənab İlham Əliyev ölkənin yüksəlişi naminə misilsiz tədbirlər həyata keçirərək xalqın firavanlığını və əmin-amanlığını təmin edib. Ötən payızda isə möhtərəm Prezidentimiz – müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Qarabağda qazanılan cahanşümul qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub və indi yeni tariximizin postmüharibə dövrünü yaşayır, geniş bərpa-quruculuq işləri görürük.***

Həyat işğaldan azad olunmuş bölgələrimizə bahar kimi, özünü hiss etdirə-etdirə gəlir. Otuz illik işğalın – qışın yaxası düymə-düymə açılır, çöllər çəmən-çəmən gülümsəyir. El gücü – sel gücü təpərinin zirvə yürüşü tezliklə könülləri sevindirmək, həsrətliləri yurd yerlərinə qovuşdurmaq qəsdindədir.

Dünya şahiddir ki, əzəli torpaqlarımız 30 il ərzində erməni barbarlar tərəfindən dağıdılıb, o yerlərin maddi – mədəni sərvətləri talan edilib. Qarabağın yenidən dirçəldilməsi ölkəmizin siyasi-iqtisadi suverenliyinin mühüm dayaqlarından biri olacaq. Özü də məsələ o torpaqlara üzdən əl gəzdirməklə bitən deyil, gərək erməni vəhşiliyinin izlərini kökündən qaşıyıb ataq ki, yerində abad yurdlar yaradaq.

Dövlətimizin başçısı son aylarda Qarabağa dəfələrlə səfərlər edib və bərpaçıları ruhlandırmaq, işləri ideal səviyyədə aparmaq üçün tapşırıq və tövsiyələrini verib. Həmin səfərlər zamanı cənab İlham Əliyevin söylədiklərinin real müstəviyə dolğun şəkildə proyeksiya olunması hər birimizi sevindirir, ümid və inam hisslərimizi



daha da artırır. Çünki üzərinə düşən rəhbərlik missiyasını heyrətamiz dərəcədə layiqincə yerinə yetirən Prezidentimizin çoxşaxəli fəaliyyəti daim sözlə işin sıx vəhdəti olmaq etibarı ilə fərqli bir keyfiyyət kəsb edir. Birbaşa qaynar ərazilərə getmək, insanlarla təmasda olmaq həm onları nəyin narahat etdiyini bilmək, həm də, əlbəttə, qərarların icrasına nəzarət baxımından önəmlidir.

Artıq işğaldan azad edilən bütün rayonlarımızın baş planları hazırlanaraq, bənd-bənd icraya yönəldilir. Dəqiqləşdirmələr, cilalamalar, ayrı-ayrı ştrixlər sabahın aydın konturlarını aşkarlayır, gözlər önündə gözəl mənzərələri canlandırır. Bərpa işlərinin ən vacib amilləri bunlardır: ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisi ilə təchizat, əhəmiyyətli yol-nəqliyyat xətlərinin, içməli su, sanitar qovşaq və irriqasiya sistemlərinin bərpası, ev-mənzil yaşayış sahələrinin yaradılması, humanitar məqsədlər üçün hava limanlarının tikilməsi. İlkin mərhələdə bu sahələrə yönəldilən sərmayələr sonrakı dövrdə bölgədə sosial və iqtisadi canlanmaya təkan verəcək. Ailə-ev təsərrüfatlarının yaradılması ilə isə məşğulluğun təminatına və həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olunacaq.

Dövlət başçısı yanvar ayında Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində çoxzolaqlı Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub. Sonra Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərinə yol alarkən qürurla bildirib ki, böyük qayıdış başlanır, bütün işlərə start verildi. Necə ki, qısa müddət ərzində düşməni tarixi dədə-baba torpaqlarımızdan qovduq, eləcə də bu yerləri qısa müddətdə bərpa edəcəyik. Azərbaycan rəhbəri həmin gün havanın günəşli olmasına da işarə eləyib: "Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur". Günəşin də zərrin şəfəqlərlə xeyir-dua verdiyi işlərin uğuruna şübhə yoxdur.

Prezident İlham Əliyevin Şuşada ziyarət etdiyi ünvanlardan biri də Saatlı məscidi idi. Bəlkə də adi təsadüfdir, amma sanki müqəddəs ocağın adı da bizə deyirdi ki, bu gün bütün saatlar qalib Azərbaycanın xeyrinə işləyir, zaman bizim zamandır...

Fevral ayında yenidən Qarabağa gələn Prezident 100 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub. Bu yolun strateji önəmi ondan ibarətdir ki, yaxın gələcəkdə ta Naxçıvana qədər gedəcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Cənab İlham Əliyev, həmçinin Zəngilanda "ağıllı kənd" layihəsinə start verib. Bu layihənin icrası beş komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. Sonra dövlət başçısı Laçında Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Gülabird" Su Elektrik Stansiyasının açılışını edib. Bu, işğaldan azad olunmuş rayonlarda Prezidentin iştirakı ilə istifadəyə



verilən ilk infrastruktur layihəsidir. Stansiya təxminən 7000 nəfər əhalinin təminatında mühüm rol oynayacaq. Burada istehsal edilən elektrik enerjisi Laçının cənub hissəsini, Qubadlının Xanlıq kəndini və ərazidə yerləşən digər infrastruktur layihələrini işıqla təmin edəcək. Onu da əlavə edək ki, bölgədə daha bir neçə işıq-həyat mənbəyi bərpa olunacaq. İranlı mütəxəssislərlə birlikdə "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının generasiya gücü daha böyük olacaq.

Cəbrayıl rayonunda Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlərlə maraqlanıb. Bu faktın özü bərpa proseslərinin kompleks aparıldığını göstərir və Qarabağın geri alınmasının həm də ölkədə məhsul bolluğuna yüksək təminat verəcəyini təsdiqləyir. Son məlumatlara görə, azad olunmuş ərazilərdə aqrar potensialın dəqiqləşdirilməsi məqsədilə torpaqların və çoxillik əkmələrin peyk vasitəsilə vektorlaşdırılması və xəritələnməsi aparılıb. Həmin torpaqlardan səmərəli istifadə edilməsi üçün ordumuzun nəzarətində olan ərazilərdəki 147 min hektar torpaq sahəsinin 78 min hektarında payızlıq əkinlər aparılır.

Zəfər yürüşündən dərhal sonra Qarabağda yeni ağacların əkilməsi ermənilər tərəfindən ekoloji terrora məruz qalmış ana təbiətin bərpası, üryan yerlərə yeni nəfəs gətirilməsi



deməkdir. Noyabr ayında Füzuli və Zəngilanda, az sonra Qubadlıda və digər bölgələrdə ağacəkmə aksiyaları Qarabağın çöhrəsinə yaşıl təbəssüm qondurub. Ərazilərdə iqlimə uyğun Şərq çinarları əkilib, yerli palıd cinsindən ibarət toxumlar səpilib. Bölgəyə səfəri zamanı Bəsitçay Dövlət Təbiət Qoruğuna da baş çəkən İlham Əliyev və ailə üzvləri orada çinar ağacları əkib, çaya balıq buraxıblar. Bu nümunə ölkə miqyasında lazımınca dəstəklənib. Artıq yaz ağac əkini mövsümü başlanıb və Qarabağın yüzlərlə hektar meşə fondu torpağında da əkinlər həyata keçirilir.

Ümumiyyətlə, azad olunmuş bölgələrdə aparılan bərpa işləri geniş əhatəlidir. Dost ölkələrin şirkətləri də bu işlərə podratçılar kimi cəlb olunur, bizimlə həmrəylik nümayiş etdirirlər. Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya və başqa ölkələr bununla bağlı istəklərini ifadə ediblər. Artıq qol çırmayıb işə başlayanlar da var. Meydan isə genişdir. Qarabağda bütün şəhərlər bərpa ediləcək və o, dünyanın ən inkişaf etmiş regionlarından birinə çevriləcək. Bərpa işləri müharibə dövründə ermənilərin terror hücumlarından ciddi ziyan çəkmiş Tərtərdə, Cocuq Mərcanlıda, digər yaşayış məntəqələrində də aparılır.

Hazırda Qarabağ ərazilərində xidmət sahələri və kommunal infrastruktur yaradılması məqsədilə ən zəruri işlər görülür. Yerlərdə müasir komendant postları qurulur. Bərpa işlərinin ardıcıl akkordları getdikcə daha aydın eşidilir. Elə Novruz çərşənbələrində ən müxtəlif guşələrdə yandırılan bayram tonqalları da Qarabağda qulluq edən və çalışan çoxlu soydaşımızın qəlbinə az hərarət gətirmədi.

Xatırladaq ki, cari ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı işğaldan azad olunan tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə ayrılıb. Eyni zamanda bu prosesə büdcədənkənar vəsaitlər də cəlb olunur ki, qayıdış planlarımız daha da sürətlənsin.

Yanvar ayında Prezidentin fərmanı ilə təsis olunan publik hüquqi şəxs – Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi üçündür. Qurum bərpa və abadlıq işlərinin, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasını dəstəkləmək məqsədinə xidmət edir. Göründüyü kimi, dövlətimiz ən müxtəlif yollarla Qarabağın normal və coşğun həyata qayıtmasından ötrü səylərini əsirgəmir, lazımi rıçaqları işə salır.

Onu da qeyd edək ki, bərpa və yenidənqurma prosesinin mərkəzi vəsiləsi məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmalarıdır. Bunun səmərəli təşkilindən ötrü repatriasiya potensialını dəqiq proqnozlaşdırmaq, bunun üçün məcburi köçkünlərin istək, niyyət və təkliflərini öyrənmək olduqca vacibdir. Həmin məqsədlə dövlət başçısının sərəncamı ilə yaradılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" nəzdindəki İdarələrarası Mərkəzin işçi qrupu sistemli araşdırmalar aparır. Bu tədqiqat çərçivəsində sosioloji sorğular keçirilir. Portala daxil olan məcburi köçkünlər özəl istək və arzularını ifadə edirlər. İlk baxışdan "Ananı görmək istəyirsənmi?" sualına cavaba bənzəyir. Amma, əslində, elə deyil. Elmi yanaşma məhz planlaşdırmada dəqiqliyi təmin etmək, harada, hansı bərpa tədbirlərini qabağa çəkmək, hansı faydalı iş əmsalına nail olmaq baxımından vacibdir.

Müjdələr də var. Bu günlərdə Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində 95 məcburi köçkün ailəsi üçün yeni qəsəbənin tikintisi başa çatıb. Qəsəbədə elektrik enerjisi və su təchizatı sistemi yaradılıb, nasosxana tikilib və yanğınsöndürmə hidrantları quraşdırılıb. Həmçinin 2,9 kilometrlik yol, 5,2 kilometrlik qaz xətti çəkilib, 7,3 hektar sahə yaşıllaşdırılıb. Bundan başqa, Bakıda müvəqqəti məskunlaşmış 30 məcburi köçkün ailəsinə onların fərdi müraciətləri əsasında, Füzuli rayonundakı daimi yaşayış yerlərinə qayıtmaq imkanı yaradılıb. Belə ki, bu ailələrə məxsus olan və Birinci Qarabağ müharibəsi zamanı dağıntıya məruz qalan evlər, Prezident İlham Əliyevin tapşırığına əsasən, yenidən tikilib və sahiblərinə verilib. İlk işartılar tezliklə göz qamaşdıracaq işıq selindən soraq verir.

Bəli, könlümüz də, yönümüz də canı-dildən dikələn, dirçələn Qarabağa sarıdır. Orada bərpa işləri dönməz prosesə çevrilib. Əzəli torpaqlarımızın məlhəm qoyulan yaraları sağalan kimi Qarabağdan bəxtəvərlik zəngulələri yüksələcək.

O günlər uzaqda deyil.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***